DOI: https://doi.org/10.36719/2706-6185/49/22-26

**Yeganə Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-8319-8849
yeganememmedova.doc@gmail.com

# Məktəbəqədər dövrdə ailə münasibətlərinin uşaq şəxsiyyətinə təsiri

## Xülasə

Uşağın şəxsiyyətinin formalaşması həyatın erkən mərhələlərində, xüsusilə məktəbəqədər yaş dövründə əsaslanır. Bu yaş mərhələsi, uşağın emosional olaraq tez-tez dəyişən bir dövrdən keçdiyi, özünü və ətrafını tanımağa başladığı vacib bir mərhələdir. Bu müddətdə uşağın inkişafında ailənin, xüsusilə valideynlərin rolu əvəzolunmazdır. Valideyn–uşaq münasibətləri bu yaş dövründə tərbiyənin əsasını təşkil edir. Valideynin sevgisi və diqqəti uşağın emosional mərkəzlərinə dərin təsir göstərərək onun daxili aləmini formalaşdırır.

Uşağın şəxsiyyətinin formalaşması valideynlərlə qurulan ünsiyyətə əsaslanır. Bu dialoqlar vasitəsilə uşaq əxlaq, əmək və mənəvi dəyərlər haqqında ilkin təsəvvürlər qazanır. Əgər valideynlər uşağın istəklərinə etinasız yanaşır və onun fərdi xüsusiyyətlərini nəzərə almırlarsa, bu, mənfi nəticələrə gətirib çıxarır. Valideynin düzgün yanaşması isə uşağın əxlaqi düşüncəsinin formalaşmasına və gələcəkdə cəmiyyətdə möhkəm şəxsiyyət kimi yetişməsinə zəmin yaradır. Uşaqlar valideynlərindən aldıqları nümunələri bağça və məktəb mühitində inkişaf etdirirlər. Onların gələcəkdə qadın və ya kişi olaraq formalaşmasında da valideynlərlə münasibətlər həlledici rol oynayır.

***Açar sözlər:*** *erkən mərhələ, məktəbəqədər dövr, şəxsiyyətin inkişafı, valideyn–uşaq münasibətləri, tərbiyənin rolu*

**Yegana Mammadova**
Azerbaijan State Pedagogical University
PhD in Pedagogy
https://orcid.org/0000-0001-8319-8849
yeganememmedova.doc@gmail.com

# The Influence of Family Relationships on A Child's Personality During Preschool

## Abstract

The formation of a child's personality is based on the early stages of life, especially the preschool age. This age stage is an important stage in which the child goes through a period of frequent emotional changes and begins to recognize himself and his surroundings. During this period, the role of the family, especially parents, in the development of the child is indispensable. Parent-child relationships form the basis of upbringing during this age period. The love and attention of the parent have a profound effect on the child's emotional centers and shape his inner world.

The formation of a child's personality is based on communication with parents. Through these dialogues, the child gains initial ideas about morality, labor and spiritual values. If parents are indifferent to the child's desires and do not take into account his individual characteristics, this leads to negative consequences. The correct approach of the parent creates the basis for the formation of the child's moral thinking and his future growth as a strong personality in society. Children develop the examples they receive from their parents in the kindergarten and school environment. Relationships with parents also play a decisive role in their future formation as a woman or a man.


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

***Keywords:*** *early stage, preschool period, personality development, parent-child relationships, the role of upbringing*

## Giriş

Uşağın şəxsiyyəti onun həyat yolunun ilk mərhələlərində – xüsusilə məktəbəqədər yaş dövründə təməlini alır. Bu dövr, uşağın sosial mühitə daxil olduğu, öz şəxsiyyətini dərk etməyə başladığı və xarici aləmlə ilkin əlaqələrinin qurulduğu həssas bir mərhələdir. Həmin yaşda ailə, uşağın əsas sosial çevrəsini təşkil edir və bu çevrədəki münasibətlər uşağın formalaşmasında mühüm rol oynayır. Valideynlərin övladlarına münasibəti, ailədəki davranış tərzi, tərbiyə prinsipləri və ümumi ailə atmosferi uşağın şəxsiyyətinə dərin təsir göstərir.

Səmərəli ailə mühitində böyüyən uşaq daha sağlam və harmonik inkişaf yolu keçir. Ailədə o, əxlaqi dəyərləri öyrənir, əmək vərdişlərinə yiyələnir, ideallarını və həyat istiqamətini formalaşdırır. Bu vərdişlər o qədər kök salır ki, insan böyüyəndə belə onlardan imtina etmir. Məhz buna görə ailənin vətənpərvərlik, zəhmətkeşlik və yüksək mənəvi dəyərlər kimi keyfiyyətləri aşılaması uşağın gələcək həyatında möhkəm təməl yaradır (Əfəndiyev, 1961).

**Məktəbəqədər yaş dövrü, uşağın emosional və sosial inkişafında xüsusi yer tutur. Bu dövrdə:**

• Mənlik şüuru formalaşır;
• Uşaq öz fikirlərini ifadə etməyə çalışır;
• Emosional sabitlik və davranış modelləri yaranır;
• Sosial bacarıqlar oyun və təqlid yolu ilə inkişaf edir (Əlizadə, 1989).

Valideynlərin uşaqlara münasibəti və onların reaksiyaları uşaqların özünəinamına birbaşa təsir edir. Müsbət münasibət şəxsiyyətin inkişafını təşviq edərkən, mənfi yanaşma əks təsir yarada bilər.

**Valideynlərin uşağın tərbiyəsində istifadə etdikləri yanaşmalar onun şəxsiyyətinin əsaslarını müəyyənləşdirir:**

• Ana – uşağın emosional rahatlığını təmin edən, sevgiyə və qayğıya əsaslanan əlaqə yaradır.
• Ata – sosial normaları öyrədir, uşağa məsuliyyət və intizam hissi qazandırır.
• Düzgün qurulmuş mükafat və cəza sistemi – uşağın öz davranışlarına nəzarət etməyi və məsuliyyətli olmağı öyrənməsinə yardımçı olur.
• Sakit və əsaslandırılmış izah üsulu – uşağın düşüncə qabiliyyətini inkişaf etdirir və mənəvi dəyərləri formalaşdırır.
• Qardaş və bacılarla münasibətlər – uşaqlarda paylaşmaq, birgə fəaliyyət göstərmək və münaqişələri konstruktiv şəkildə həll etmək vərdişlərini gücləndirir.

**Məktəbəqədər yaş dövründə çalışan mütəxəssislərin müşahidələrinə görə:**

• Ailəsində sabitlik və sevgi mühiti olan uşaqlar sosial qruplarda özlərini daha sərbəst aparır, rahat ünsiyyət qururlar.
• Əsəbi və qeyri-sabit ailə şəraitində böyüyən uşaqlar isə ya içəqapanıqlıq nümayiş etdirir, ya da aqressiv davranış sərgiləyirlər.
• Eyni yaşda və oxşar intellektual səviyyədə olan uşaqlar arasında belə ailə mühitinin fərqləri şəxsiyyətlərinin formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərir (Hüseynzadə, 2016).

**Tədqiqat**

Məktəbəqədər dövr uşağın şəxsiyyət inkişafında dönüş nöqtəsi kimi qəbul olunur. Bu yaş mərhələsində uşağın psixoloji və emosional böyüməsinə ən güclü təsir edən amillərdən biri valideynlərlə qurulan münasibətlərdir. Erkən yaşlarda qurulan bu bağlar uşağın emosional tənzimlənməsinə və sosiallaşmasına birbaşa təsir edir. Valideyn qayğısı uşağın beynində emosional funksiyaları idarə edən sahələrə güclü təsir göstərir. Məhz bu səbəbdən valideynlər uşağın əxlaqi dəyərlərinin və dünya görüşünün formalaşmasında başlıca rol oynayırlar (Ağayev, Talıbov, Eminov, & İsayev, 2006).

Uşağın ilk illərində ailə ilə qurulan münasibətlər gələcək inkişafına yön verir. Körpə ilk olaraq anası ilə göz təması, jestlər və səslərlə ünsiyyətə girir. Bu əlaqələr onun təhlükəsizlik hissini möhkəmləndirir və daha geniş ünsiyyət ehtiyacını artırır. Bəzi valideynlər düşünürlər ki, uşaqla

ünsiyyət qurmaq üçün onun danışmağı öyrənməsi vacibdir. Əslində, bu əlaqə hələ uşağın ana bətnində olduğu dövrdə başlamalıdır. Valideynlərlə qarşılıqlı münasibət uşaqlarda inam və təhlükəsizlik hissi formalaşdırır.

Belə bir atmosferdə böyüyən uşaq dünyanı müsbət yöndə dərk edir və bu, onun gələcək münasibətlərinə də əks olunur. Məktəbəqədər yaşlı uşaqlar, səmimi və anlayışlı münasibətləri qiymətləndirirlər. Bu münasibətlər uşağın davranışlarını və şəxsiyyətini müəyyənləşdirən motivləri formalaşdırır. Uşağın fikirlərini dinləyən və onları ciddiyə alan valideynlər, tərbiyə prosesində daha uğurlu olurlar.

Ailə içindəki sosial münasibətlər uşağın sosial dünya ilə tanışlığının əsasını təşkil edir. Ata-ana, bacı-qardaş arasındakı münasibətlər tərbiyə baxımından ciddi əhəmiyyətə malikdir. N.Tusi qeyd etmişdir ki, uşağın şəxsiyyəti onun ətraf mühitindən asılı olaraq formalaşır, buna görə də uşaq yanlış təsirlərə məruz qalmamalıdır. Valideynlər uşaqlarla qarşılıqlı ünsiyyətlərini düzgün tənzimlədikdə onların şəxsiyyət formalaşması da ardıcıl və sağlam olur. Xüsusilə demokratik ünsiyyət tərzi ilə böyüyən uşaqlarda müstəqillik, məsuliyyət və sosial bacarıqlar inkişaf edir. Əksinə, avtoritar üslubla böyüyən uşaqlar qorxuya əsaslanan münasibətlərə öyrəşir, özünəinamdan uzaq qalır, yeni mühitə uyğunlaşmaqda çətinlik çəkirlər (Çələbiyev, 2005).

Uşaqlar cinsiyyətə aid rolları da ailədən öyrənirlər. Qızlar ana ilə, oğlanlar isə ata ilə ünsiyyət sayəsində öz rollarını mənimsəyirlər. Ailədəki davranış modelləri onların gələcək həyatında qadın və ya kişi kimi mövqelərinin bünövrəsini təşkil edir. Valideynlərin davranış nümunəsi uşağın şəxsiyyətinə güclü təsir göstərir və bu, təkcə uşaqlıqda deyil, yeniyetməlik və gənclik dövrlərində də davam edir.

Məktəbəqədər yaş dövründə uşağın şəxsiyyətinin formalaşmasında tərbiyənin əsas sahələri – əmək, mənəvi və əqli tərbiyə – ayrı-ayrılıqda deyil, kompleks şəkildə, bir-birini tamamlayan formada həyata keçirilməsi olduqca vacibdir. Uşağın tərbiyəsi parçalanmış şəkildə deyil, bütöv yanaşma ilə təşkil olunmalıdır. Valideynlər övladlarını elə erkən dövrdən düzgün istiqamətləndirməlidirlər ki, sonradan onun davranışlarını yenidən formalaşdırmağa ehtiyac qalmasın. Uşaq elə tərbiyə olunmalıdır ki, gələcəkdə həm ailəsinə, həm cəmiyyətə, həm də xalqına fayda gətirən bir şəxsə çevrilsin və heç bir zaman ətrafına yük olmasın.

Məktəbəqədər dövrdə uşağın şəxsiyyətinin formalaşmasına təsir edən əsas amillərdən biri də valideynin övladı ilə necə ünsiyyət qurmasıdır. Ailədə tətbiq olunan ünsiyyət tərzi uşağın gələcək inkişafında və şəxsiyyət kimi formalaşmasında həlledici rol oynayır. Bu münasibətin düzgün qurulması uşağın sağlam psixoloji və sosial inkişafı üçün vacib şərtlərdən biridir (Həmzəyev, 1966).

Valideyn-uşaq münasibətlərində ən diqqətçəkən ünsiyyət tərzlərindən biri "demokratik" yanaşmadır. Bu ünsiyyət modelini seçən valideynlər övladlarının psixoloji və şəxsi inkişafında ciddi çətinliklərlə qarşılaşmırlar. Belə ailələrdə münasibətlər qarşılıqlı hörmət və kollektiv yanaşma üzərində qurulur: valideynlər övladlarının hüquqlarına hörmət edir, onların fikirlərinə əhəmiyyət verir, yönəldici məsləhətlər verir və lazım gəldikdə həm təşviq edir, həm də nəzakətli şəkildə səhvlərini göstərirlər.

Demokratik ünsiyyət tərzini mənimsəmiş valideynlər eyni zamanda uşağın emosional vəziyyətinə biganə qalmır, onun hisslərinə qarşı diqqətli olurlar və bu hissləri birlikdə yaşamağa çalışırlar. Belə ailə mühitində böyüyən uşaqlarda özünə güvən, təşəbbüskarlıq və ünsiyyət bacarığı daha inkişaf etmiş olur. Zaman keçdikcə bu uşaqlarda kollektiv fəaliyyətə maraq, məsuliyyət hissi, fəallıq və öz davranışlarına tənqidi yanaşma bacarığı formalaşır. Bu üslubda tərbiyə alan uşaqlar həm yaşıdları, həm də böyüklərlə düzgün və sağlam münasibətlər qurmağı bacarırlar (Əliyev, 2006).

Uşağın şəxsiyyət inkişafına mənfi təsir göstərən valideyn davranışlarından biri də avtoritar ünsiyyət üslubunun tətbiq olunmasıdır. Belə tərbiyə stilini seçən valideynlər övladlarından şərtsiz itaət, ciddi intizam və mövcud qayda-qanunlara tam riayət etməyi tələb edirlər. Bu üslubda uşaq daim valideynin göstərişlərinə tabe olur, onun nəyi icazə verib, nəyə qadağa qoyduğunu mübahisəsiz qəbul edir. Ailədaxili münasibətlər əsasən qorxu və itaətkarlıq üzərində qurulur, valideynlər isə tez-tez cəza tədbirlərinə müraciət edirlər. Belə bir yanaşma uşaqlarda özlərinə inamın azalmasına, mənfi özünüqiymətləndirməyə səbəb olur. Bu mühitdə böyüyən uşaqlar yeni situasiyalara çətinliklə

uyğunlaşır, sosial münasibətlər qurmaqda passiv olurlar və psixoloji baxımdan gerilik (infantilizm) əlamətləri göstərə bilirlər (İbrahimov, Hüseynzadə, 2013).

Məktəbəqədər dövrdə uşağın şəxsiyyətinin formalaşmasının təməli, ilk növbədə valideynlərlə qurulan söhbətlər və emosional münasibətlər vasitəsilə qoyulur. Uşaqda əməyə maraq, mənəvi dəyərlərə və mədəni sərvətlərə bağlılıq kimi xüsusiyyətlər də bu münasibətlər əsasında inkişaf edir. Əgər valideynlər övladlarının arzularına məhəl qoymurlar, onların istəyini rədd edir, fərdi xüsusiyyətləri – temperament və xarakterlərini nəzərə almırlarsa, bu hallar uşağın şəxsiyyətinə mənfi təsir göstərir.

Uşağın gələcəkdə kişi və ya qadın kimi formalaşmasının təməli də ailədə, valideynlərlə münasibət çərçivəsində atılır. Psixoloji araşdırmalar göstərir ki, qız uşaqları qadınlıqla bağlı davranış modellərini ilk növbədə ana ilə yaxın ünsiyyətdə öyrənirlər. Oğlan uşaqlarında isə kişiyə xas olan xüsusiyyətlər, xüsusilə iradə gücü, ataları ilə münasibət əsasında inkişaf edir. Uşaqların kişi və qadın rollarını mənimsəməsində valideynin davranış tərzi böyük əhəmiyyət daşıyır. Ata – kişi, ana – qadın kimi nümunə olduqda, bu, uşağın cinsi kimlik və sosial rol anlayışının düzgün formalaşmasına ciddi təsir göstərir.

Valideynlərlə düzgün münasibətlər təkcə məktəbəqədər dövrdə deyil, yeniyetməlik və gənclik mərhələlərində də uşağın şəxsiyyət kimi inkişafı üçün əsas rol oynayır. Məşhur pedaqoq A.S. Makarenko valideynlərə müraciət edərək bildirmişdir: “Ən vacib tərbiyə üsulu sizin gündəlik davranışınızdır. Elə düşünməyin ki, uşağınızı yalnız onunla danışdığınız, ona dərs keçdiyiniz və ya əmr verdiyiniz anlarda tərbiyələndirirsiniz. Siz onu həyatınızın hər bir anında – hətta evdə olmadığınız zaman belə tərbiyə edirsiniz. Siz başqaları ilə necə ünsiyyət qurursunuz, necə sevinir və kədərlənirsiniz, dost və düşmənə necə yanaşırsınız – bütün bunların hər biri uşaq üçün mühüm örnəkdir.”

Valideynlər uşaqlar üçün həm sosial hadisələr haqqında məlumat əldə etdikləri əsas mənbə, həm də cəmiyyətin bir üzvü kimi fərdi xüsusiyyətlərə və qarşılıqlı münasibətlərə sahib olan bir şəxs kimi idrak edilən nümunəyə çevrilirlər. Onların əməyə verdiyi dəyər, bilik və bacarıqlarını, istedadını ölkənin inkişafı naminə sərf etmələri, dürüst və prinsipial davranışları, eyni zamanda səmimi münasibətləri uşaqların və yeniyetmələrin şəxsiyyət kimi formalaşmasında böyük rol oynayır (Mursaqulova & Rüstəmova, 2012).

## Nəticə

Məktəbəqədər yaş dövründə uşaqlar valideynlərin onlarla maraqlanmasından, duyğularını dinləmələrindən və yaşlarına uyğun yanaşmalardan məmnun qalırlar. Bu mərhələdə onların yaş xüsusiyyətlərinin nəzərə alınması və tərbiyə prosesində tətbiq edilməsi olduqca vacibdir.

Uşaqlar bəzən böyük insanların istəklərinə uyğun davranırlar və bu davranışlar onların şəxsiyyətlərində, münasibət tərzlərində və ünsiyyət bacarıqlarında özünü göstərir. Onlar valideynlərinin dediklərini və etdiklərini təqlid edərək davranış formalarını mənimsəyirlər.

Yekun olaraq demək olar ki, valideyn-uşaq münasibətlərinin düzgün tənzimlənməsi məktəbəqədər yaşlı uşaqların şəxsiyyətinin düzgün və balanslı şəkildə inkişafı üçün əsas şərtlərdən biridir. Bu münasibətlərdə sevgi, hörmət, anlayış və qarşılıqlı dəstək varsa, uşaq cəmiyyətə faydalı, özünəinamlı və sosial bir fərd kimi formalaşır.

Bu səbəbdən valideynlərin maarifləndirilməsi, ailə dəyərlərinin möhkəmləndirilməsi və effektiv tərbiyə üsullarının tətbiqi mühüm əhəmiyyət daşıyır.

## Ədəbiyyat

1. Ağayev, Ə., Talıbov, İ., Eminov, A., & İsayev, İ. (2006). *Pedaqogika*. Adiloğlu.
2. Çələbiyev, N. Z. (2005). *Uşaq psixologiyası*. ADPU.
3. Əlizadə, Ə. Ə., & Abbasov, A. N. (1989). *Ailə*. Maarif.
4. Əliyev, R. İ. (2006). *Tərbiyə psixologiyası*. Nurlan.
5. Əfəndiyev, T. M. (1961). *Valideyn uşaq haqqında nələr bilməlidir*. Azərtədris.
6. Hüseynzadə, R. L. (2016). *Ailə pedaqogikası*.

7. Həmzəyev, M. Ə. (1966). *Ailə tərbiyəsində uşaqların fərdi xüsusiyyətlərinin nəzərə alınması.* Maarif.
8. İbrahimov, F. N., & Hüseynzadə, R. L. (2013). *Pedaqogika*. Mütərcim.
9. Mursaqulova, S., & Rüstəmova, N. (2012). *Məktəbəqədər pedaqogika*. ADPU.

Daxil oldu: 06.03.2025
Qəbul edildi: 09.06.2025